# Onun adı Darxan

## Aida Eyvazlı Göytürk

***Bilirsinizmi "Darxan", "Darhan" sözünün etimoloji mənası nədir?***

***"Tar"- "Dar" kökündən törəyən bu söz qədim Altaylarda və moğollarda yaymaq, yayılmaq, törəmək, termək sözlərinin mənasını zənginləşdirir. "Törəmək"- törəyib, çoxalmaq, "termək"- dərib –toplama mənasını verir.***

***Dar- Tar - xan sözü həm də Tarkan-Tarhan sözlərini əmələ gətirib. Eli tərən- bir yerə toplayana Tarkhan-Tarhan-Darhan deyiblər. Öz dövründə tarkanlık yüksək bir status sayılırdı. İslamiyət öncəsi Tarhan, Targan, Dargan, Darkan Türk dövlətlərində generallara, sərkərdələrə verilən ad və status idi.***

Moğolların miflərində və əfsanələrində də yurdda, mahalda seçilən kişilərə və qadınlara da "Darhan" adı verərlərmiş. Darhan həm də bacarıqlı dəmirçi ustalara verilən ad idi. Hun dövründən yayılan "Darhan" adı Altaylarda, Türk xalqları yaşayan yerlərdə mifləşmiş və nağıllarda, əsərlərdə yaşayaraq, bu günümüzə qədər gəlib çatmışdı. Oğlunu uca yerlərdə görmək istəyən ata və ana, baba və ya nənə, el ağsaqqalı ona "Darxan" adı verəndə, dəyərli ki, adına, törəsinə layiq olsun. Necə ki, Dədə Qorqud Kitabımızda yazılan kimi: "Dədəm Qorqud gəlsün, bu oğlana ad qoysun: biləsincə alub babasına varsun, babasından oğlana bəglik istəsün, təxt alı versün» – dedilər Dədə Qorqud gəlub oğlana ad qoydu və atasına dedi: "... Adını bən verdüm, yaşını allah versün". Dədə Qorqud dastanında ad insanın taleyi, əməli,yaşam tərzi idi.

Yəni Darxan sözü insan üçün müqəddəs bir ünvandır. Bu adı layiqincə daşıya bilənin nə xoş halına.

***Mənim haqqında danışmaq istədiyim, ünvanını göstrəmək istədiyim Darxan Kuandık oğlu Kıdıralı da adına bəylik, terlik verən bir insandır. Adındakı müqəddəsliyi qoruyan, su kimi təmiz saxlayan Darxan Xıdıralı baharın 16 aprel günündə 1974-cü ildə Cənubi Qazaxıstanın Tülkübaş (əslində rayonun adı Türkübaşdır) rayonunda doğulmuşdu. Kuandık oğlunun adını "Darxan" çağırdı. Bu gənc ailə başçısı vilayətin ən böyük kolxozlarından birinin zootexniki idi. Əkin-biçin vaxtı, soyuqlu-şaxtalı havalarda ancaq işinin başında oldu. Bir gün evdə olanda , üç gün çöldə-bayırda dövlətin malını qorudu. Qəndgül xanım ərini "Çöl adamı" sayırdı. Bilirdi ki, həyat yoldaşı dövlətin malına-mülkünə bir ziyan dəyməsin deyə, çöllərdə kolxozun malheyvanını qoruyur. İnsanların köməyinə çatır.***

Darxanın ayağı yüngül oldu. Daha sonra Qəndgülün daha üç övladı gəldi dünyaya. Darxanın 8 yaşı olanda 36 yaşlı Kuandık bu dünyaya əlvida dedi. Dünya malında gözü olmayan Kuandık 4 körpənin ümüdünə qoydu sevgili həyat yoldaşını. 31 yaşlı Qəndgül o gündən etibarən həm atası, həm anası oldu övladlarının. Əri dünyadan köçəndən sonra, dünyası tar-mar oldu Qəndgül müəllimənin. Ərinin sağlığında palçıqdan yoğurub kərpic-kərpic ucaltdığı ər evindən, həyətindən heç zaman uzağa, çölə-bayıra çıxmadı. Getdiyi yer müəllimə işlədiyi kənd məktəbi, gəldiyi yer ocağının başı oldu. Ata evi yaşadığı Türkübaş rayonunun 4 kilometrliyində olsa da, bircə dəfə anası rəhmətə gedəndə ata evinin qapısını açdı.

### Burada sənin dəyərini bilməzlər, get oğul...

8-ci sinfi bitirdiyində müəllimlərindən biri ona "4" yazdı. Bu o demək idi ki, Darxan qırmızı attestat ala bilməyəcəkdi. Darxan xəbəri anaya dedikdə, elə bil ki, qanadları qırıldı. Ana öz oğlunun biliyinə , istedadına bələd idi. Bu



kəndin böyüklərinin əmr-fərmanı belə idi. Atasız uşağa yuxarıdan aşağı baxardılar. Atasız uşağın qırmızı attestat almağa pulu çatmazdı ki... Gecəni gözünə yuxu getmədi Qəndgülün. Səhər yeməyi süfrəsinə oturduqda Darxanın könlünü ala-ala, üsulluca ona belə dedi: "Oğul Almatıda bir yeni məktəb açılıb, burada sənin qiymətini bilməzlər. Get orada oxu. ". Orada həm də yatmağa yer verəcəklər sənə". Darxan "hə" demək əvəzinə anasından soruşmuşdu: "Ana, səni burada tək qoyub hara gedim, bəs bacı-qardaşım?". Ana: "oğul, uzağa getmirsən ki, Almatı əlimizin içindədir. Bir də ki, paytaxt elə paytaxtdır... get adam ol, böyük ol, yolun-irizin işıqlı olsun..!" - beləcə uğurlayıb, oxumağa yola salmışdı oğlunu. Bu Qəndgül müəlliminin haqsızlığa, ədalətsizliyə hayqırtısı idi. Ailənin namusunu, evinin istisini-ocağını qorudu Qəndgül. Təzə paltar geyinmədi, əlində olanı oğluna-qızına yedirtdi. Qızıl-gümüş taxmadı. Belə fikirləşdi ki, dul qadının bəribəzəyi olmaz. Ana ümidlə yaşadı. Ruhani tərbiyəsi də mükəmməl olan Qəndgülün gördüyü röyalar çin olardı. Bilirdi ki, yolun sonunda bir işıq var. Bilirdi ki, Darxan bacı-qardaşının da, elinin də, köməyi, dayağı olacaq.

***Ana ümidlə yaşadı. Ruhani tərbiyəsi də mükəmməl olan Qəndgülün gördüyü röyalar çin olardı. Bilirdi ki, yolun sonunda bir işıq var. Bilirdi ki, Darxan bacı-qardaşının da, elinin də, köməyi, dayağı olacaq.***

***Almatıya işıq, elm dalısınca getdiyi gündən tale, bəxt yazısı da dəyişdi Darxanın. Məktəbi bitirdikdən sonra Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin tarix fakultəsinə qəbul oldu. 2 il sonra təhsilini Türkiyənin Mərmərə Universitetində davam etdirməyə başladı. Doqquz Eylül, Egey , İstanbul Universitetlərində elm, bilim öyrəndi. Egey universitetində ilk elmi işini müdafiə etdi, İstanbul universitetində PhD elmi dərəcəsini qazandı. Biliklərini, oxuduqlarını, öyrəndiklərini, qazandıqlarını xalqına, elinə qaytarmaq üçün elinə, yurduna döndü. Təhsil aldığı universitetlərdə, həm də türk, azərbaycan, özbək, qırğız dillərini mükəmməl mənimsədi.***

### Böyük Çölün oğlu

Türkiyədə elm dəryasından türk dünyasının incilərini götürən Darxan Kıdıralı geniş Qazax şanırakının altına elə bir vaxtda dönmüşdü ki, hər yerdən "Türkəm" sədaları gəlirdi. 2001-ci ildən etibarən Xoca Əhməd Yassəvi adına Beynəlxalq qazxtürk universitetində elmi işçi kimi fəaliyyətə başlayan Darxan Kıdıralı 2005-ci ildə artıq kafedra müdiri, aparat rəhbəri vəzifəsinə qədər yüksəlmişdi. Daha sonra paytaxt Astanada yerləşən L.N.Qumilyov adına Milli Avrasiya Universitetində dosent və baş elmi işçi kimi fəaliyyət göstərdi. Ölkənin aparıcı kütləvi informasiya vasitələrindəki çıxışları Türk dünyasının birliyi çağırışlarına ayna tuturdu.

Türk dünyasının birliyi yolunda yeni təməllər yeni fikir adamları ilə qoyulur. Azərbaycan da təməlində türkçülük ideyaları yaşadan bir dövlət kimi bu Birliyin qurulması üçün beynəlxalq müzakirələrə və iş birliyinə hər zaman meydan verib. 2009-cu ilin oktyabr ayının 3-də Naxçıvanda keçirilən Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasının IX cammitində Nursultan Nazarbayev tərəfindən Türk Akademiyasının yaradılması haqqında təşəbbüs irəli sürüldü. 2014-cü ildə Akademiyaya Beynəlxalq status verildi.TWESCO adlandırıldı. Elə həmin il Darxan Kuandık oğlu Kıdıralı Akademiyanın prezidenti təyin edildi.

Darxan Kıdıralı Türkiyədə ali təhsil aldığı, doktorluq dissertasiyası müdafiə etdiyi dönəmlərdə, Türküstanda Xoca Əhməd Yassəvi ocağında dərs dediyi dönəmlərdə kilidi açılmayan bir çox bağlı qapılarımızın açarını axtarmaqdaydı. Beynəlxalq Türk Akademiyası- TWESCO-da rəhbər kimi fəaliyyətə başlayanda isə, bu qapının açarını tapmaq üçün əvvəlcə qardaş madyarlar ölkəsinə- Macarıstana rəsmi səfər etdi. Bundan bir az sonra isə babalarımızın, dədələrimizin moğol çöllərində yazıb qoyduğu daş kitabələrini yenidən oxutmaq üçün yola çıxdı.

### Tanrı sizin bütün istəklərinizi yerinə yetirəcək

Beynəlxalq Türk Akademiyası- TWESCO-da rəhbər kimi fəaliyyətə başlayandan bir az sonra babalarımızın, dədələrimizin moğol çöllərində yazıb qoyduğu daş kitabələrini yenidən oxutmaq üçün yola çıxdı. Professor Darxan Kıdıralı ilə söhbətlərimizdən birində o müqəddəs səfərini belə xatırlamışdı:

-Görüşlərin ən gözəli, səfərlərin ən müqəddəsi idi. Beynəlxalq Türk Akademiyasının (BTA) elmi əməkdaşı Akedil Toyşanolu da mənimlə idi. Akedil Monqolustan doğumlusu olduğundan, monqol dilində sərbəst danışır. Gəlib Ulan-Batordan 50 kilometr uzaqda, Bayan Çokto bölgəsində yerləşən Tonyukük babamızdan qalan daş abidəyə çatdıq. Sürücüyə və Akedilə dedim ki, Tonyukük babamız üçün Quran oxuyacağam. Təəccüblə soruşdular ki, belə olurmu? Dedim ki, nədən olmasın ki, əlbəttə olur. Tonyukük də bir övliya, bir peyğəmbər kimi adam. Allahın kəlamını onun üçün oxuyuram. Babamızdan qalan daş məktubu qucaqladıq. İçimizə bir duru rahatlıq doldu. Dirsəklənib daşın yanında oturduq. Ətrafda uzanan boz çöllərə, yaşıl yamaclara, balbal daşlarına baxdıq. Nə qədər sirr yatırdı bu yurdlarda... Bir qədər zaman keçəndən sonra, yolumuza davam etmək üçün maşına mindik. 20 metr getmişdik ki, arabanın təkərləri partladı. Birdən xatırladım ki, axı mən Quran oxumağı unutmuşam. Tonyukük, Bilgə Xaqan, Kül Tekin , bizdən yüz illər əvvəl buraya ayaqları dəyən bütün babalarımızın, adları anılmayan, unudulan övliyalarımızın ruhuna ehtiram olaraq Quran oxudum. Uzun-uzadı alqış etdim, dua etdim Tanrıya.

***Daha sonra arabamızın təkərini dəyişib, yolumuza davam etdik. Ertəsi gün Kül Tekin və Bilgə Xaqan abidələri kompleksini ziyarət etməli idik. Gecədən yağan yağış hələ kəsmək bilmirdi. Akedil dedi ki, burada Öge Noour - (Ana Göl) deyilən bir yer var. Oraları da mütləq ziyarət etməliyik. Səhər tezdən yola çıxdıq. Yağan yağış hər tərəfi palçıq etmişdi. Palçıq dolu yolla bir təhər arabaya mindik. Öge Nooura çatmaq üçün iki görünən təpəni aşmalı idik. Təpənin başına çatanda, arabamız yenə xarab oldu. Bu yolları çox yaxşı tanıyan sürücü də naəlac qalıb. Bir də baxdıq ki, bizdən qabaqda bir adam gedir. Elə bu vaxt yağmur da dayandı. Kişinin əlində şlyapası, bizdən fərqli olaraq onun ayaqları palçığa da batmamışdı, əynindəki plaşında da bir damcı olsun yağış damcısı yox idi. Sürücüyə dedim ki, yolçunu yolda qoymayaq, arabamıza mindirək. Akedil onu arabaya dəvət etdi. Gəlib oturdu. Bir kilometr getmişdik ki, araba yenə pozuldu. Adam dedi ki, arabanın akkumlyatoruna baxın. Sürücü akkumlyatora baxıb, nasazlığı aradan götürdü. Gülə-gülə dedi ki, yağmur məni elə çaşdırıb ki, heç ağlıma da gəlməzdi ki, burada akkumlyatorumuz pozula bilər. Araba işə düşəndən sonra, naməlum adam dedi ki, mən burada enəcəm. Akedildən onun kim olduğunu soruşdum. Akedil dedi ki, , Öge Noourun qoruyucusudur. Təəccüblə yenə dedim: bu gölü bu boyda səhrada kimdən qoruyacaqmış ki?..***

***Darxan Kıdıralı Türkiyədə ali təhsil aldığı, doktorluq dissertasiyası müdafiə etdiyi dönəmlərdə, Türküstanda Xoca Əhməd Yassəvi ocağında dərs dediyi dönəmlərdə kilidi açılmayan bir çox bağlı qapılarımızın açarını axtarmaqdaydı. Beynəlxalq Türk Akademiyası- TWESCO-da rəhbər kimi fəaliyyətə başlayanda isə, bu qapının açarını tapmaq üçün əvvəlcə qardaş madyarlar ölkəsinə- Macarıstana rəsmi səfər etdi. Bundan bir az sonra isə babalarımızın, dədələrimizin moğol çöllərində yazıb qoyduğu daş kitabələrini yenidən oxutmaq üçün yola çıxdı...***

(ardı gələn sayımızda)